ədalət 2019.- 29 iyun.- S.7.



# SÜD RƏNGLİ GECƏ

(Hekayə)

Allahverdi EMİNOV

**(əvvəli ötən sayımızda)**

Zərbalı yerində donmuşdu, rektorsayağı, bədənini almış tər onu yandırırdı. - Zərbalı təmiz oğlandır, yoldaş dekan, nəticə çıxarmağa tələsməyin. Mitinqə tək çağırmayıb tələbələri, hamısının fikridir. Siz nahaqan onun boynuna qoyursuz və siyasi don geyindirirsiz. Öz iradənizlə hərəkət edin. Zərbalını institutdan qovmağı qərara alsanız, mən istefa verəcəyəm, biryolluq buranı tərk edəcəyəm. Və ayağa durmuşdu.

Zərbalı müqəssirə tərəf addım atdı. Müstəntiqə elə gəldi, bu anlarda o, müəllimin üzərinə atılacaq, vəzifə borcunu şərəflə yerinə yetirəcəkdir. Ancaq vaxtı yetişməmişdir. Dilə tutmalıdır, çək-sevirdən sonra. - Oturun, - dedi müstəntiq. - Bu dəfə özü ayağa qalxdı, gözü yanırdı, salamat qalmış vərəqi götürdü, yenə stolun üstünə qoydu.

- İnadkar müstəntiqsiz, amma mənfisindən. - Titrəyən əllərini cibinə apardı. Saqqalını ovuşdurdu. Zərbalı qurumuş dodağını çeynəyir, o günə qayıdırdı. - O, danışanda geniş auditoriyaya sığmırdı. Səsi bal şirinliyində tələbələrin canına yayılırdı. - Sizi qınamıram, - bu dəfə də "müəllim" kəlməsini kəsdi. - Auditoriyada pedaqoqlar pələngə dönürlər. - Müstəntiq qəhqəhə çəkdi, enli dodaqları aralandı, sanki yarasalar yuvasıydı, bu məmələr sözləri udub çölə uçuşurdular. Zərbalının ağlına haradan gəldi müqayisə. Və ikrahla gülümsündü.

- Vaxt ötür, yoldaş pedaqoq. Bizi girinc edirsiniz. Biz xidmətdəyik, vaxtımız eləcə bol deyildir ki, sizinlə siçanpişik oynayaq.

Müqəssir özünü toxdatmağı bacarmadı və cəld irəli getdi, müstəntiq geri çəkildi, şax dayandı. Qürurunu qırmamaq üçün. Və həm də Zərbalıya baxdı ki, mənim yanımdakı

- Rədd ol otaqdan. - Qışqırdı. Eynən dekanlıqda dekanın üstünə qışqırmışdı, həmin gün onun bu hərəkəti instituta yayılmışdı. - Bu gün də amiranə səs qalmışdır, haqsızlığa dözməyəndə beləcə cilovlanmayır o səs. Əlini qaldırdı, iki barmağını qoşalaşdırdı. - Elə olmasın gözlərini ovum, əclaf, belə dərs öyrətmişlər? İşiniz-gücünüz yoxdur məgər? Cinayətkarı başlı-başına buraxmısız, onu doqquzuncu mərtəbədə axtarırsız! Di, tərk edin! Və üzünü tanımadığı adama tutdu. - Vurun məni. Var gücünüzlə. Hə, niyə durmusuz?

Zərbalı özünü itirdi, müqəssirin nəfəsi, xırıltısı güclənirdi. Yaxınlaşdı. Əllərini tutdu.Onun gözlərindəki o işıltı kölgəyə bulaşmışdı. Barmaqlarını ilk dəfə idi ovcunda hiss elədi, titrəyirdi. Neçə ildi görməmişdi. - Ürəyindən keçirdi və özündən asılı olmadan titrəyən barmaqlarını buraxdı. Və yenə də ovcunda sıxdı. İlahi, istiyə bənzər nəsə bir şey bədəninə qırma kimi sancıldı. Qollarına güc gəldi. Biləyinə keçirdiyi dəyənəyi gizlətdi.

- Sizlərə yaxşılıq düşmür, ay pedaqoq. - Müstəntiqin səsi qulaqlarına doldu. - İşə başlamaq zamanı yetişdi.

Zərbalı müstəntiqin ona çevrilmiş vücudunun bu dərəcədə yekəpər olduğuna neçə vaxtda əhəmiyyət verməmişdi. - Eşitmirsən, yoxsa karsan? - Müstəntiq əlini kəmərə atdı. - Xidməti işdəsiniz! Və sol əlini uzadıb dəyənəyi özünə dartdı. - Bəlkə?

Zərbalı əsəbi, dəyənəyi müstəntiqin əlindən ayırdı və onun başı üstünə qaldırdı. Müstəntiq bu gözlənilməz hərəkətdən sustaldı, nəsə dodaqaltı mızıldadı. - Mərifətli apar özünü! - Müstəntiq var gücüylə dəyənəkdən yapışdı. - Kiminlə danışırsan, bəlkə bu müəllim sənin atandır, qorxudan gizlədirsən? - Gözləri ilə Zərbalını yedi.

Zərbalı özüylə bacarmadı.

- Nə ixtiyarla müəllimi təhqir eləyirsən? Ən böyük cinayətkar özünsən, bir də bu vəzifəni sənə həvalə edəndir! Əclaf, yaramaz! Və müstəntiqin yaxasından yapışıb qapıya sarı dartdı. Qapı bir zərbdən açıldı və dəhliz göründü. Müstəntiq qarşı divara dəyib çömbəldi. - Baxarıq! Qudurmusan? - Qışqırdı.

Zərbalı cəld dəhlizə atıldı, müstəntiqin boğazından yapışdı, qaldırdı, sifətinə tüpürdü: - Əclaf mənəm, sənsən - dəyənəyin gücü ilə yalan etirafları yazdırırıq, ailələri yetim qoyuruq, karyera üçün! Nədir o müəllimin günahı? Söylə, əclaf! Söylə! Bax, beləcə otur, taxtabiti kimi tapdalayacağam səni. Təpik səsi dəhlizdə sürünürdü. Bir-neçə dəmir qapılar dərhal açıldı. Zərbalını dövrəyə aldılar, üzüaşağı dartdılar.

Zərbalı siqareti üzüaşağı tolazladı. Siqaret havanı cızdı, qopmuş ulduzlarsayağı şöləsini itirdi: filan yerdə olacaqdı. Cəmi bir gün aman vermişdilər. Bir gün...

Otağa girdi. Pəncərənin tül örtüyünü dürməklədi. İşıq süzülürdü. Saat işləyirdi. Qızları yatırdı.

Səhər açılırdı. Süd rəngli bu səhərin işığı içərinin qaranlığını əridirdi. Zərbalı özündə bir təskinlik duydu, elə bil bu neçə saatı oyaq qalmamışdı. Görəsən "müqəssir" onu səsindən tanımışdımı?

Sifətinə təbəssüm qondu Zərbalının. Əlini boynunun altında daraqladı. Gözləri pəncərədən süzülən süd rəngli işıqda nəyisə axtarırdı.